# Ata sevgisi

*Hind əfsanəsindən*



Betal Vikramın qarşısına başqa bir tapmaca qoydu.

Lelavati adında bir qadın bir oğru ilə evlənir. Evləndikdən sonra kişi yeni bir həyata başlamaq üçün oğurluqdan əl çəkməyə qərar verir. Heç bir işdə qərar tuta bilmədiyindən, qadın ağır şəraitdə işləməli olur. Lakin, bu vəziyyət çox davam etmir. Tezliklə onların bir oğlu dünyaya gəlir və kişi ailəsinə baxa bilmədiyini anlayır, işləmək və az pul qazanmaq ona çətin gəldiyindən, yenidən oğurluq etməyə başlayır. Onun ölümündən sonra Lelavati bir tacirlə evlənir.

Tacir Lelavati ilə qurduğu bu ailəni çox sevir, uşağa çox yaxşı baxır, ehtiyaclarını qarşılayır. Oğlan böyüyüb, bütün işlərin başına keçəndə valideynləri dünyasını dəyişir.

Oğlan valideynləri üçün su kənarında son dini ritualı yerinə yetirmək üçün əyləşir. Bu zaman suyun altından üç əl göyə doğru uzanır. Oğlan onun üçün dua edən əllərin və səsin sahibini dərhal tanıyır - bu onun anasıdır. Amma digər iki əldən hansının öz atasının əli olduğunu təyin edə bilmir. Bir zamanlar anasının əsl atanın kim olduğu ilə bağlı dediyi sözləri xatırladı və onun kim olduğunu tapdı.

Betal hekayənin bu yerində dayandı və Vikramdan onun əsl atasının kim olduğunu soruşdu. Vikram cavab verdi:

- Əlbəttə ki, onun əsl atası tacirdir. Çünki o bütün sevgisini, xeyirxah və mərhəmətli duyğularını, ən saf cəhətlərini o oğlana aşılayıb, onun yaxşı insan olması üçün heç nəyi əsirgəməyib. Oğru isə ona sadəcə fiziki həyat verib. Betal Vikramı doğru yoldan döndərə bilməyəcəyini anladı.

**İngilis dilindən tərcümə edən:**
**Elcan Salmanqızı**